İPƏK YOLU, No.4, 2025, səh.75-82
https://doi.org/10.30546/SI.2025.4.6.521

# AZƏRBAYCANDA QİDA İSTEHLAKININ MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ

**Ləzifə Həsənova**

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, Azərbaycan
e-mail: lazifa.hasanova@gmail.com

**Xülasə.** Qida istehlakının öyrənilməsi ərzaq siyasətində əhəmiyyət daşıyır. Azərbaycanda qida istehlakı göstəricilərinin təhlili əhalinin həyat səviyyəsini, ərzaq təhlükəsizliyini və sosial-iqtisadi inkişaf dinamikasını qiymətləndirmək baxımından mühüm rol oynayır. Məqalədə istehlak xərcləri, qida istehlakının həmin xərclərdə payı araşdırılmış və müqayisəli təhlil edilmişdir.

**Açar sözlər:** Qida, istehlak, istehlak xərcləri, Engel əmsalı.

## REVIEW OF THE CURRENT STATE OF FOOD CONSUMPTION IN AZERBAIJAN

**Lazifa Hasanova**
*Azerbaijan State University of Economics (UNEC), Baku, Azerbaijan*

**Abstract.** The study of food consumption is important in food policy. The analysis of food consumption indicators in Azerbaijan plays an important role in assessing the standard of living of the population, food security and the dynamics of socio-economic development. The article examines and compares consumption expenditures and the share of food consumption in these expenditures.
**Keywords:** Food, consumption, consumer spending, Engel coefficient.

## СОВРЕМЕННОГО СОСТОЯНИЯ ПОТРЕБЛЕНИЯ ПРОДОВОЛЬСТВИЯ В АЗЕРБАЙДЖАНЕ

**Лазифа Гасанова**
*Азербайджанский Государственный Экономический Университет (UNEC), Баку, Азербайджан*

**Резюме.** Изучение потребления продуктов питания имеет важное значение в продовольственной политике. Анализ показателей потребления продуктов питания в Азербайджане играет важную роль в оценке уровня жизни населения, продовольственной безопасности и динамики социально-экономического развития. В статье рассматриваются и сравниваются потребительские расходы и доля потребления продуктов питания в этих расходах.
**Ключевые слова:** Продукты питания, потребление, потребительские расходы, коэффициент Энгеля.

## 1. Giriş

Ev təsərrüfatlarının xərcləmə vərdişlərini və iqtisadi davranışlarını göstərən əsas iqtisadi göstəricilərdən biri istehlak xərcləridir. İstehlak dedikdə, ev təsərrüfatlarının müxtəlif məhsul kateqoriyalarında aldığı mal və xidmətlərdən nəzərdə tutulur. İstehlak xərcləri ÜDM-in əsas tərkib hissəsidir. ÜDM yüksək paya malik olduğuna görə fiskal planlaşdırma üçün makroiqtisadi siyasətdə istehlak xərcləri nəzərə alınır. Ev təsərrüfatlarının nə qədər istehlak etmək və ya qənaət etmək qərarı, iqtisadiyyatın ayrı-ayrı vahidləri ilə əlaqəli olduğu üçün mikroiqtisadi məsələdir. Bununla belə, o, bütövlükdə iqtisadiyyata təsir göstərir, çünki məcmu ev təsərrüfatlarının istehlakı iqtisadiyyatda qısa və uzun müddətdə davranışını müəyyən edir.

Ev təsərrüfatları səviyyəsində tələblərin ödənilməsi dərəcəsi istehlak xərcləri, o cümlədən qidaya yönəlmiş xərclər ilə əlaqələndirilə bilər. İstehlakçı xərclərindəki dəyişikliklərin məcmu tələbə təsiri qısamüddətli təhlil üçün çox vacibdir. Ev təsərrüfatlarının

istehlakının da uzunmüddətli təhlildə rolu var, çünki bu, iqtisadiyyatın böyüməsinə təsir göstərir. Ümumiyyətlə, qida istehlakı ölkənin iqtisadi və sosial strukturundan, eləcə də onun ətraf mühitindən, iqlimindən, resurslarından və ticarət siyasətindən, əhalisinin tərkibindən, mədəniyyətindən və həyat tərzindən asılıdır. Ömür boyu qazanc əsasında sərvət və gözlənilən illik gəlir də istehlak xərcləri modellərini müəyyən edir. Nə qədər istehlak etmək və ya qənaət etmək qərarı, iqtisadiyyatın ayrı-ayrı bölmələri ilə əlaqəli olduğu üçün mikroiqtisadi sualdır. Bununla belə, onun bütövlükdə iqtisadiyyata təsiri var, çünki məcmu ev təsərrüfatlarının istehlakı iqtisadiyyatın qısa və uzunmüddətli perspektivdə davranışını müəyyən edir.

## 2. Müasir cəmiyyətdə istehlakın strukturu formaları

İstehlak fəaliyyətləri birbaşa olaraq insanların həyat standartı və ya həyat tərzi məqsədlərinə cavab verir. İnsanların, ümumiyyətlə, istehlakçı kimi öz hərəkətləri ilə dəstəklənən və ya zəiflədilə bilən əmək, ədalət, azadlıq, ekoloji tarazlıq və s. vasitəsilə özünü reallaşdırmaqla bağlı başqa məqsədləri də var. İstehlakın fərdi və sosial rifaha verdiyi töhfəyə baxmaq, ilk növbədə məhsullarını satmaqda maraqlı olan marketoloqlardan daha geniş baxış tələb edir. Bu, həm də ilk növbədə istehlakçı seçiminin modelləşdirilməsində maraqlı olan faydalılıq nəzəriyyəçiləri tərəfindən qəbul ediləndən daha geniş baxışı nəzərdə tutur. Müasir cəmiyyətdə istehlak nümunələrinin dəyişməsi qloballaşma və texnoloji inkişaflar dövründə getdikcə aktuallaşan məsələyə çevrilməkdədir. İstehlak strukturları ümumiyyətlə gəlirin müxtəlif ehtiyaclar və üstünlüklər üzrə necə bölüşdürüldüyünə görə təsnif edilir. Bu təsnifatı aşağıdakı kimi göstərmək olar:

- Əsas ehtiyaclara, yəni ilkin tələbata yönəlmiş istehlak. Buraya ilk növbədə qida, mənzil, kommunal xidmətlər və geyim kimi əsas şeylərə diqqət yetirir. Aşağı gəlirli ailələrdə və ya inkişaf etməkdə olan regionlarda üstünlük təşkil edir. Yüksək Engel əmsalı ilə xarakterizə olunur, yəni gəlirin böyük bir hissəsi qidaya gedir. Maslonun istəklər iyerarxiyası ilə qida istehlakı arasında çox maraqlı və dərin bir əlaqənin təzahürü baş verir [3]. Həmin iyerarxiyaya görə qida - insanın ilkin fizioloji ehtiyacı kimi ən aşağı pillədə qərarlaşır. Engel əmsalı nə qədər çoxdursa, insanların qida istehlakı bir o qədər çox olur.
- Rahatlığa yönəlmiş istehlak - burada qida xərcləri aşağı səviyyədə olur, xərclərin strukturunda daha keyfiyyətli mənzil, nəqliyyat və səhiyyəyə doğru artım özünü göstərir. Birdəfəlik gəlirin həyat tərzini yüksəltməyə imkan verdiyi orta gəlirli qruplarda görülür. Artan istehlakçı suverenliyini və üstünlüklərə əsaslanan xərcləri əks etdirir.
- İnkişafa istiqamətlənmiş istehlak - burada xərclər təhsilə, istirahətə, ünsiyyətə və şəxsi inkişafa əsaslanır. İnsan kapitalını və uzunmüddətli rifahı vurğulayan cəmiyyəti göstərir. Yuxarı orta və yüksək gəlirli iqtisadiyyatı olan ölkələrdə geniş yayılmışdır.

## 3. Qida - ev təsərrüfatlarının ehtiyaclarının təminedicisi kimi

Qida insan həyatında əsas fərdi tələblərdən biri kimi mühüm yer tutur. Bu ehtiyac, öz intensivliyi ilə digər bioloji tələbatlar üzərində üstünlük təşkil edir və mütəmadi şəkildə təmin olunmasını tələb edir. Lakin həyat səviyyəsinin yüksəlməsi ilə yanaşı, qida təkcə orqanizmi saxlamaq və qidalandırmaqla kifayətlənmir - həm də davamlılıq, sağlamlıq və kulinariya mədəniyyətinə artan marağın göstəricisinə çevrilir. Qida, eyni zamanda bədənin regenerasiyası üçün vacib olan iqrediyentləri təmin edir, insanın psixo-fiziki vəziyyətinə, immun sisteminin gücünə və xəstəliklərə qarşı müqavimətinə bilavasitə təsir göstərir. Bu amillər isə nəticə etibarilə insanın ömrünü və həyat keyfiyyətini müəyyənləşdirir. Qida məhsulları üzrə xərclər kateqoriyası ev təsərrüfatları üzvlərinin tələblərinə yönəldilir və onların fəaliyyətinə və fəaliyyət dairəsinə birbaşa və ya dolayı təsir göstərir. Ev təsərrüfatlarının üzvlərinin sağlamlığına da təsir göstərir. Qida və pəhriz sosial mədəniyyətin tərkib hissəsi kimi qəbul edilir [4]. Qidanın fərdi tələblərin rasional şəkildə ödənildiyi zaman optimal sosial inkişaf və ahəngdar sosial birgəyaşayış olan, kollektiv ehtiyaca cavab verən xüsusi növ aktiv olduğu vurğulanır. Bununla belə, qida cəmiyyətin hər bir üzvü üçün iqtisadi cəhətdən əlçatan olduqdan sonra istehlakçılara qidaya qulluq haqqında maarifləndirmək əhəmiyyətə çevrilir. Qida istehlakında baş verən dəyişikliklər və tendensiyalar ərzaq təhlükəsizliyinin mühüm hissəsi olmaqla yanaşı, qidaya olan tələb və təklif sisteminin təkmilləşdirilməsi, ərzaq siyasətinin formalaşdırılması və kənd təsərrüfatı strukturunun korreksiyası üçün mühüm əsas hesab olunur [1]. Əhalinin qida seçimlərindəki meylləri öyrənmək bu cəhətdən böyük əhəmiyyət daşıyır.

## 4. Material və metodlar

Məqalədə statistik məlumatlardan istifadə edərək müqayisəli təhlil, sistem yanaşması tətbiq olunmuşdur. Azərbaycanda qida istehlakı göstəricilərinin dəyərləndirilməsi məqsədilə rəsmi statistik məlumatlara əsaslanılmışdır. Əsas məlumat mənbəyi kimi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin "Ərzaq balansı" və "Ev təsərrüfatlarının büdcə tədqiqatları"ndan əldə olunan 2018-2024-cü illəri əhatə edən göstəricilərdən istifadə edilmişdir. Qida məhsulları üzrə xərclərin gəlir elastikliyini qiymətləndirmək üçün Engel əmsalı istifadə olunmuşdur.

## 5. Azərbaycanda istehlak xərclərinin dinamikası

Ev təsərrüfatlarının xərcləri qida, sağlamlıq xərcləri, təhsil, geyim, mənzil (kirayəyə), nəqliyyat, yanacaq xərcləri, asudə vaxt və müxtəlif xidmətlər kimi gündəlik tələbatlarını ödəmək üçün ümumi istehlak xərclərinin məcmu payı kimi istinad edilir. Son illərdə Azərbaycanda istehlak xərclərinin dinamikası əhalinin gəlir səviyyəsindəki dəyişikliklər, inflyasiya və sosial siyasət tədbirləri ilə sıx bağlı şəkildə inkişaf etmişdir. İlk öncə istehlakçıların gəlirlərinin statistikasını araşdırmağa ehtiyac duyulur. Qrafik 1-də 10 il üzrə istehlakçı gəlirləri göstərilmişdir.




**Qrafik 1.** 2014-2024-cü illər üzrə adambaşına düşən istehlak xərcləri
**Mənbə:** Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib edilib

Qrafikdən göründüyü kimi, adambaşına düşən gəlirlərdə artım tempi 2,8-8% faiz arasında olmuş, yalnız 2020-ci ildə azalma baş vermişdir [2]. Ən yüksək artım tempi 2022-ci ildə qeydə alınmış və bu, pandemiyadan sonrakı iqtisadi canlanma ilə əlaqələndirilə bilər. Hesablamalara əsasən, illik gəlir artımı müəyyən dövrlərdə fərqlənsə də, ümumi olaraq müsbət tendensiya müşahidə olunmuşdur.

Ev təsərrüfatlarının istehlak xərcləri əhalinin gəlir səviyyəsi, qiymət dinamikası və sosial prioritetləri ilə sıx bağlıdır və bu dəyişkənlər onların xərcləmə davranışlarını müəyyənləşdirdiyi məlumdur. Son on ildə istehlak xərclərinin quruluşunun və artım tendensiyasını aşağıdakı cədvəldən görə bilərik:

**Cədvəl 1.** 10 il ərzində istehlak və qida xərcləri

| | İllər üzrə cəmi, manatla | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **2014** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** | **2023** | **2024** |
| **İstehlak xərcləri, cəmi** | **234.9** | **245.6** | **264.7** | **278.2** | **286.0** | **298.4** | **297.8** | **308.6** | **333.4** | **348.1** | **363.5** |
| qida məhsullarına | 96.8 | 100.7 | **108.6** | **119.4** | **121.3** | **125.4** | **130.8** | **136.5** | **147.0** | **154.8** | **158.1** |

**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib edilib

Cədvəldən də göründüyü kimi istehlak xərclərinin strukturunda ən böyük hissəni qida məhsullarına olan xərclər tutur. Engel əmsalına görə hesablama aparsaq:

$$E = \frac{FE}{TE}x100\%$$

Burada E - Engel əmsalı, FE - qidaya çəkilən xərclər, TE - isə ümumi istehlak xərcləridir. Bu əmsala əsasən, qida xərcləri istehlak xərclərinin 40-45%-ni təşkil edir. 10 il ərzində qida məhsullarına ən çox 2023-cü ildə xərclənmişdir. Müqayisə üçün deyə bilərik ki, Rusiya və Belarus kimi nisbətən daha yüksək gəlirli MDB ölkələrində isə bu pay 30-35% ətrafında dəyişir.

**Cədvəl 2.** Dünya ölkələri üzrə qida xərclərinin payı

| **Dünya üzrə İstehlak xərclərinin payında qida xərcləri, faizlə** | | | |
|---|---|---|---|
| **Ölkə** | Region | Qida xərclərinin payı | Mənbə |
| **Azərbaycan** | MDB | 40-45% | Dövlət Statistika Komitəsi |
| **Qazaxıstan** | MDB | 45% | BMT FAO / yerli statistika |
| **Tacikistan** | MDB | 55% | Dünya Bankı |
| **Rusiya** | MDB | 32% | Rosstat |
| **Almaniya** | Qərbi Avropa | 12% | Eurostat |
| **Fransa** | Qərbi Avropa | 13% | Eurostat |
| **İtaliya** | Qərbi Avropa | 15% | Eurostat |
| **ABŞ** | Şimali Amerika | 13.20% | USDA / BLS |

Əgər bu ölkələrin istehlak xərclərinin strukturuna baxsaq, o zaman məlum olur ki, 2024-cü ildə Rusiyada, Qərbi Avropa ölkələri (Almaniya, Fransa, İtaliya) və ABŞ-da istehlak xərclərinin ən böyük payı ümumi istehlakın təxminən 30%-ni təşkil edərək mənzil və enerjiyə yönəlmişdir. Rusiyada və nümunədə göstərilən Qərbi Avropa ölkələrində qida məhsullarının istehlakı 2-ci yerdə, ABŞ-da 3-cü yerdə qərarlaşıb.




**Qrafik 2.** 2014-2016-cı illər ərzində Azərbaycanda ev təsərrüfatlarında orta aylıq sərəncamda olan gəlirlərin, ümumi xərclərin və qida xərclərinin (adambaşına) dinamikası (real ifadədə)
**Mənbə:** Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında hazırlanıb

Bu fərqlər Engel qanunu ilə də izah olunur: gəlir artdıqca ərzağa ayrılan xərclərin payı azalır, çünki insanlar daha çox xidmətlərə, təhsilə və istirahətə yönəlirlər. Engel [4] qeyd etmişdir ki, fərd, ailə və ya millət nə qədər yoxsuldursa, gəlirinin bir o qədər çox faizi fiziki varlığın qorunmasına xərclənməlidir, ən böyük pay isə qidaya xərclənməlidir.

Qrafikdən göründüyü kimi istehlak xərcləri adambaşına düşən aylıq gəliri az nisbətdə üstələmiş, paralel olaraq artmış və bu artım isə əsasən son 4 ildə özünü göstərmişdir.

## 6. Qida məhsulları istehlakının quruluşu

Qida məhsullarının istehlakında baş verən dəyişikliklər və tendensiyalar ərzaq təhlükəsizliyinin mühüm hissəsi olmaqla yanaşı, qidaya olan tələb və təklif sisteminin təkmilləşdirilməsi, ərzaq siyasətinin formalaşdırılması və kənd təsərrüfatı strukturunun təkmilləşdirilməsi üçün mühüm əsasdır. Qida istehlakı strukturu pəhrizdəki müxtəlif növ qidaların çeşidinə, miqdarına və nisbətinə aiddir. Bir ölkənin qida istehlakına onun gəlir bölgüsü səviyyəsi, əhalinin strukturu, pəhriz vərdişləri və coğrafi xüsusiyyətləri kimi amillər təsir göstərir ki, bu da ölkənin ərzaq istehsalı ilə bağlı qərarlarını müəyyən dərəcədə təsir edir [2]. İstehlakçılar alıcı davranışları vasitəsilə tələb məlumatlarını istehsalçılara ötürürlər və istehsalçılar istehlakçı tələbatını ödəmək və öz gəlirliliyinə nail olmaq üçün aktiv tədqiqat və inkişaf strategiyalarını qəbul edirlər. Cədvəl 3-də 10 il ərzində istehlakçıların qida məhsullarının istehlakı ilə bağlı göstəricilər yer almışdır.

**Cədvəl 3.** 10 il ərzində qida məhsullarının istehlak dinamikası

| | **Ölkə üzrə cəmi, ildə kiloqramla** | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **2014** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** | **2023** | **2024** |
| Çörək və çörək məhsulları | 139.8 | 138.4 | 138.3 | 138.0 | 137.0 | 135.2 | 134.9 | 134.4 | 133.8 | 133.2 | 131.5 |
| Kartof | 71.3 | 71.8 | 72.3 | 72.6 | 72.8 | 73.2 | 73.4 | 75.2 | 76.8 | 77.6 | 77.8 |
| Tərəvəz və bostan bitkiləri | 106.4 | 106.5 | 106.6 | 107.3 | 107.4 | 108.6 | 108.5 | 110.0 | 111.7 | 112.2 | 113.4 |
| Ət və ət məhsulları | 33.8 | 33.9 | 33.5 | 33.6 | 33.7 | 33.8 | 33.7 | 34.9 | 35.3 | 35.9 | 36.1 |
| Balıq və balıq məhsulları | 7.2 | 7.3 | 7.2 | 7.2 | 7.2 | 7.3 | 7.3 | 7.3 | 7.5 | 7.8 | 7.8 |
| Süd və süd məhsulları | 274.3 | 272.1 | 270.7 | 269.6 | 269.8 | 267.9 | 266.9 | 253.0 | 251.8 | 248.7 | 244.9 |
| Yumurta, ədəd | 158.0 | 158.0 | 158.0 | 159.0 | 159.0 | 160.0 | 158.0 | 162.0 | 162.0 | 162.0 | 163.0 |
| Meyvə, giləmeyvə | 77.2 | 78.0 | 78.2 | 78.3 | 78.4 | 79.1 | 79.1 | 81.5 | 83.8 | 84.4 | 84.5 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Qənd və qənnadı məmulatları | 30.6 | 30.2 | 30.2 | 30.2 | 30.1 | 30.3 | 30.2 | 30.3 | 30.8 | 31.1 | 31.2 |
| Bitki yağı və marqarin | 10.3 | 10.4 | 10.5 | 10.5 | 10.6 | 10.7 | 10.7 | 10.7 | 10.8 | 10.9 | 10.9 |

**Mənbə:** Azərbaycan Dövlət Statistika Komitəsinin hesabatları əsasında tərtib edilib

Cədvəl 3-ə nəzər saldıqda görmək olur ki, ən yüksək paya sahib olan Süd və süd məhsullarıdır. 10 il ərzində azalma müşahidə olunsa da, digər göstəricilərdən həmişə yüksək olmuşdur. FAO (BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı) məlumatlarına əsaslanaraq illik istehlak üçün standart normanı: taxıl və taxıl məhsulları - 140-160 kq; ət və ət məhsulları - 35-45 kq; süd və süd məhsulları 80-100 kq; balıq və dəniz məhsulları - 20-25 kq; meyvə və tərəvəzlər - 120-150 kq; qənd və qənnadı məmulatları - 20-25 kq; bitki yağları - 10-15 kq; yumurta - 150-200 ədəd kimi müəyyən olunmuşdur. Demək olar ki, Azərbaycanda süd məhsullarının istehlakı dünya üzrə ortalamadan böyükdür: dünya üzrə 80-100 kq arası dəyişmə varsa, Azərbaycanda bu norma bütün illər ərzində 240 kq-dan çox olmuşdur. Balıq və balıq məhsulları ən az paya sahib olmaqla bərabər, onun istehlakı dünya standartlarından xeyli aşağıdır (standart = 20-25 kq). Çörək və çörək məhsullarında azalmanı qida vərdişlərindəki dəyişikliklər, sağlam qidaya meyl etmə və gəlirlərin artımı ilə izah etmək olar. Analoji olaraq tərəvəz və bostan bitkilərinin istehlakında artım da sağlam qisa meylləri ilə izah oluna bilər. On il ərzində artım əsasən meyvə tərəvəz istehlakında özünü göstərmişdir - cəmi 274 kq istehlak olunmuşdur. Ölkələr üzrə müqayisələrə baxdıqda isə bu nəticəyə gəlmək olur ki, İtaliyada bitki əsaslı qidalar, xüsusilə meyvə və tərəvəz (200-250 kq), Fransada süd məhsulları - 100-120 kq, Rusiyada taxıl məhsulları və kartof (cəmi 240-270 kq), Çində düyü və taxıl məhsulları (180-200 kq), ABŞ-da isə ət və ət məhsulları (120-125 kq) üstünlük təşkil etmişdir. Bu onu göstərir ki, qida istehlakı vərdişi standart deyil, lakin bir sıra sosial iqtisadi və ekoloji amillərin əsasında formalaşır.

**Nəticə.** Azərbaycanda istehlak xərclərinin strukturunun təhlili göstərir ki, əhalinin ən böyük xərci qida məhsullarına yönəlib. Qida məhsulları arasında süd və süd məhsulları ən yüksək paya sahib olaraq istehlak səbətində üstünlük təşkil edir. Bu tendensiya, əhalinin qidalanma vərdişləri və ərzaq təhlükəsizliyinə verdiyi önəmi əks etdirir. Süd məhsullarının liderliyi həm qida dəyəri, həm əhalinin ənənəvi istehlak mədəniyyəti, həm də ölkənin coğrafi quruluşu ilə də izah oluna bilər. İstehlakçı səbətində hansı qida məhsulların üstün olduğunu bilməklə, kənd təsərrüfatı planlamasına, tədqiqat və inkişafın təkmilləşdirilməsinə, subsidiya bölgüsünə və daxili istehsalın dəstəklənməsinə istiqamət vermək olar.

## Ədəbiyyat

1. Bi W., Song Y., Liu Y., Li Z., Zhang Y. (2022), Food consumption structure and food security-through mediating effect analysis of agricultural R&D and agricultural investment. International Journal of Environmental Research and Public Health, Vol.19, No.19, 12524. https://doi.org/10.3390/ijerph191912524
2. https://www.stat.gov.az/source/budget_households/
3. Ihensekien O.A., Joel A.C. (2023), Abraham Maslow's hierarchy of needs and Frederick Herzberg's two-factor motivation theories: Implications for organizational performance. The Romanian Economic Journal, Vol.85, No.1, 31-47.
4. Leszczyńska M. (2019), Relations between incomes and expenditures on food of Polish households: Regional perspective. Economic and Environmental Studies, Vol.19, No.1, 93-111. https://doi.org/10.25167/ees.2019.49.5
5. Zhang J. (2021), On influence of consumption onproduction-aslo on how to expand domestic consumption demand. Teaching and Research, Vol.55, No.3, 2736.